# AZƏRBAYCAN RESPUBLİKASI
# MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

# AZƏRBAYCANIN XALQ YAZIÇISI ANARIN ANADAN OLMASININ 70 İLLİYİ

*BAKI – 2007*

**AZƏRBAYCAN RESPUBLIKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

# AZƏRBAYCANIN XALQ YAZIÇISI ANARIN ANADAN OLMASININ 70 İLLİYİ

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

Mədəniyyət və Turizm Nazirliyi
nəzdində Koordinasiya Şurasının
2007-ci il___ tarixli ___ nömrəli
protokolu ilə çapa tövsiyə olunub

*BAKI – 2007*

*Tərtib edəni:* *Samirə Eminova, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin baş biblioqrafı*

*Redaktor:* *Fazil Məmmədov, Elmi işlər üzrə direktor müavini*

*Rəyçilər:*

*Azərbaycanın Xalq yazıçısı Anarın anadan olmasının 70 illiyi: Metodik tövsiyələr/Tərt. edəni S.Eminova.-B., 2007. - 18 s.*

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007**

# ANAR – 70

Görkəmli nasir, kinodramaturq Rzayev Anar Rəsul oğlu 1938-ci il mart ayının 14-də Bakı şəhərində anadan olmuşdur. Onun çoxşaxəli yaradıcılığı, bədii və publisistik əsərləri, kinofilmləri xalqa sədaqətlə xidmət etmək nümunəsidir. Bu ali məqsəd naminə Anar dünən də, bu gün də həm nasir və dramaturq, həm ssenarist və kinorejissor, həm də publisist və ictimai xadim kimi yaşayıb yaradır, çalışır və geniş fəaliyyət göstərir.

O, Bakı şəhərində onillik musiqi məktəbini bitirdikdən sonra 1955-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş, 1960-cı ildə oranı bitirmişdir. 1960-1961-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat Muzeyində elmi işçi, 1961-1967-ci illərdə isə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor işləmişdir.1968-1987-ci illərdə «Qobustan» incəsənət toplusunun baş redaktoru vəzifəsində çalışmışdir. 1987-ci ildən Azərbaycan Yazıçılar Ittifaqının birinci katibidir.

1960-cı ildə «Azərbaycan» jurnalında çıxan «Keçən ilin son gecəsi», «Bayram həsrətində» ilk mətbu hekayələridir. O, 1987-ci ildə «Literaturnoe obozrenie» jurnalının mükafatını almışdır. Bir çox pyesləri Azərbaycan Dövlət Milli Dram Teatrında, respublikanın müxtəlif teatrlarında, habelə xarici ölkə səhnələrində tamaşaya qoyulmuşdur. 1980-ci ildə «Şəhərin yay günləri» pyesinə görə Azərbaycan Respublikası Dövlət mükafatına layiq görülmüşdür.

Anar kino sahəsində 1964-cü ildən çalışır. On iki bədii filmin və ondan artıq sənədli televiziya filminin ssenari müəllifidir. Onun ssenariləri əsasında «Torpaq. Dəniz. Od. Səma», «Gün keçdi», «Dədə Qorqud», «Dantenin yubileyi», «Ötən ilin son gecəsi», «Üzeyir ömrü», «Imtahan», «Qəm pəncərəsi», «Əlaqə», «Təhminə», «Beşmərtəbəli evin altıncı mərtəbəsi», «Otel otağı» bədii, «Dəniz», «Qobustan», «Bu, Səttar Bəhlulzadədir», «Nəsimi», «Daş saat», «Aşıqlar», «Bu, Cavaddır» sənədli filmləri, «Evləri köndələn yar», «Nigarançılıq» film-

tamaşaları yaradılmışdır. O, «Üzeyir ömrü», «Qəm pəncərəsi», «Dantenin yubileyi» filmlərinin həm də quruluşçu rejissorudur. Ədəbi əsərlərində olduğu kimi, filmlərində də mənəvi-əxlaqi problemlər qaldırılmış, cəmiyyətdəki neqativ hallar ifşa edilmişdir.

Anar 1976-1983-cü illər ərzində ictimai əsaslarla Azərbaycan Teatr Cəmiyyəti sədrinin birinci müavini vəzifəsini daşımışdır.

1972-ci ildə Anarın ssenariləri əsasında «Mozalan» satirik kinojurnalında bir çox süjetlər çəkilmişdir. Özü isə həmin il «Var olun, qızlar» bədii filmində Muradov roluna çəkilmişdir.

1983-cü ildən Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri, 1993-cü ildən isə Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin sədri seçilmişdir, eyni zamanda həmin ildən Azərbaycan Ədəbiyyatı və Incəsənəti Ensiklopediyasının baş redaktorudur. Keçmiş Ümumittifaq Yazıçılar Ittifaqının Idarə Heyətinin katibi olmuşdur.

Anar 1993-cü ildə Türkiyədə Istanbul şəhəri Memar Sinan Universitetində Azərbaycan ədəbiyyatı tarixindən mühazirələr oxumuşdur. Beynəlxalq Dialoq Avro-Asiya Təşkilatının sədridir.Kinematoqrafçılar Ittifaqı Idarə Heyətinin üzvüdür.

1979-1989-cu illərdə «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı Almaniyada, 1991-ci ildə Isveçrədə alman dilində, 1980—1984-cü illərdə Çexoslovakiyada çex və slovak, 1981-ci ildə Macarıstanda macar dillərində kütləvi tirajla buraxılmışdır. «Ağ liman» əsəri 1978-ci ildə Polşada, 1972-ci ildə Macarıstanda, 1973-cü ildə Bolqarıstanda, 1991-ci ildə Türkiyədə nəşr olunmuşdur. «Əlaqə» əsəri 1981-ci ildə Polşada, «Dədə Qorqud» 1982–ci ildə Macarıstanda, 1970-ci ildə «Dədə Qorqud dünyası» kitabları Iranda nəfis şəkildə nəşr olunmuşdur. Türkiyədə 10 kitabı çap edilmişdir. 1969-cu ildə Moskvada rus dilində «Dantenin yubileyi», 1973-cü ildə «Ağ liman», 1980-cı ildə «Əlaqə», 1988-ci ildə «Beş mərtəbəli evin altıncı mərtəbəsi», 1989-cu ildə «Macal» əsərləri böyük tirajla çapdan çıxmışdır. Onun özbək, qazax, gürcü və eston dillərində də kitabları nəşr

olunmuşdur. Əsərləri 20-dən artıq dilə tərcümə edilmişdir.V.Şekspirin «Fırtına» pyesini ilk dəfə olaraq Azərbaycan dilinə tərcumə etmişdir.

Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Anar 1998-ci ildə «Şərəf nişanı», «Istiqlal» ordenləri ilə təltif olunmuşdur.

## *ANARIN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ*

| | |
|---|---|
| **1938** | Rzayev Anar Rəsul oğlu martın 14-də Bakı şəhərində anadan olmuşdur |
| **1955-1960** | Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir |
| **1960-1961** | Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat muzeyində elmi işçi kimi çalışmışdır |
| **1964** | Azərbaycan Yazıçılar Birliyinin üzvüdür |
| **1961-1967** | Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor işləmişdir |
| **1970-1972** | Moskvada Ali ssenari və rejissor kurslarını bitirmişdir |
| **1968-1987** | «Qobustan» incəsənət toplusunun baş redaktoru vəzifəsində işləmişdir. |
| **1976** | Azərbaycanın Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür |
| **1980** | Respublika Dövlət mükafatına layiq görülmüşdür |
| **1983** | Asiya və Afrika Ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri olmuşdur |

| | |
|---|---|
| **1987-1991** | Azərbaycan Yazıçılar İttifaqının birinci katibi olmuşdur |
| **1987** | Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir |
| **1989** | SSRİ Xalq deputatı seçilmişdir. |
| **1991** | Azərbaycan Yazıçılar Birliyinin sədri seçilmişdir |
| **1993** | Azərbaycan-Türkiyə Dostluq Cəmiyyətinin sədri seçilmişdir |
| **1993** | Azərbaycan ədəbiyyatı və incəsənəti ensiklopediyasının baş redaktoru olmuşdur |
| **1993** | Türkiyə İstanbul şəhəri Memar Sinan Universitetində Azərbaycan ədəbiyyatı tarixindən mühazirələr oxumuşdur |
| **1994** | Azərbaysan Respublikası Milli Məclisinin deputatı seçilmişdir |
| **1998** | Xalq yazıçısı adına layiq görülmüşdür |
| **1998** | «Şərəf nişanı», «İstiqlal» ordenləri ilə təltif olunmuşdur |

## *ANARIN YARADICILIĞININ KİTABXANALARDA TƏBLİĞİ*

Sevimli yazıçı Anarın 2008-ci il mart ayının 14-də anadan olmasının 70 illik yubileyi tamam olur.Anarın ədəbi və ictimai fəaliyyətini, yaradıcılıq xüsusiyyətlərini, əsərlərinin yaranma tarixini öyrənmək, onun ədəbi irsini oxuculara çatdırmaq və təbliğ etmək sahəsində kitabxanaların üzərinə böyük vəzifələr düşür.

Yubiley ilində bütün mədəni-maarif müəssisələri ilə yanaşı, elm ocaqları və kitabxanalar da fəal iştirak etməli, sənətkarın həyat və fəaliyyətinə həsr olunmuş ədəbiyyatın oxucu kütləsi arasında geniş təbliğ olunmasına çalışmalıdırlar. MKS-də və onun filiallarında tədbirlər planı işlənib hazırlanmalı və yazıçının yubileyi yüksək səviyyədə keçirilməlidir.

Yubiley ilində kitabxanalar Anarın əsərlərinin  və onun haqqında çap olunmuş kitabların, həmçinin dövri mətbuat materiallarının geniş oxucu kütləsinə çatdırılması üçün əyani və şifahi təbliğatın bütün formalarından, kitab sərgilərindən, kitabxana plakatlarından, stendlərdən, oxucu konfranslarından, biblioqrafik xülasələrdən,məruzə və muhazirələrdən və s. geniş şəkildə istifadə etməlidirlər.

Kitabxanalarda əsasən əyani təbliğat formalarının imkanlarına diqqət yetirilməlidir. Çünki əyani təbliğat daha geniş oxucu kütləsini sistemli şəkildə əhatə edə bilir və onların mütaliəsinə müsbət təsir göstərir. Belə ki, əyani yollarla ədəbiyyat təbliğinin formaları olan kitab sərgiləri və kitabxana plakatları 15-20 gündən tez dəyişdirilmir və bu müddətdə ona mümkün qədər çox adam baxa bilir.Əyani təbligat bilavasitə gözlə görmə prinsipinə əsaslanır.Yeri gəlmişkən deyək ki, bilavasitə gözlə görüb qavramanın daha təsirli iş metodu olduğu artıq kitabxanaların psixoloji və praktiki iş təcrübələri ilə təsdiqlənmişdir.

Hər hansı kütləvi tədbirin səmərəli təşkili kitabxanaçıların yaradıcılıq bacarığından daha çox asılıdır. Bu baxımdan oxucu konfransı geniş kütləvi  tədbir formalarından biridir. Oxucu konfransı, görüş, ədəbi-bədii gecə, sual-cavab gecələri və s. kimi

tədbirlərin təşkilində əvvəlcədən ayrıca proqram tərtib edilməlidir. Kitabxanaçı proqramda keçirilən tədbirin adını, giriş sözü və eləcə də çıxış edəcək başqa şəxslərin adını göstərməlidir. Bütün bunlarla yanaşı, tədbirin harada, nə vaxt keçiriləcəyi qeyd edilməlidir. Əsasən tədbirin çoxluğuna yox, onun keyfiyyətli və məzmunlu keçirilməsinə fikir verilməlidir.

Tədbirin yaxşı təşkili və bunun təsiri sayəsində kitabxanaçı oxucuların kitablardan daha çox istifadə etməsinə nail ola bilər. İş planında il ərzində 3-4 oxucu konfransı nəzərdə tutulmalıdır. Konfransa hazırlıq işi 1,5 aya qədər davam etməlidir. Konfransın mövzusu üzrə fondda olan kitabların bir neçəsi seçilib ayrılmalı və onlar məruzəçiyə hazırlaşmaq üçün tövsiyə olunmalıdır. Ümumiyyətlə, kitabxanaçı konfransda çıxış edəcək hər bir oxucunu ədəbiyyatla təmin etməlidir,konfransa hazırlaşan oxucularla əlaqəyə girib onların çıxışlarının nə vaxt hazır olduqları günü də müəyyənləşdirməlidir.Yalnız bundan sonra konfransı keçirmək üçün vaxtı təyin edib, elan yazmaq olar. Kitabxanaçı oxucu konfransının maraqlı və səmərəli keçməsi üçün məruzə və çıxışlara rayon və yaxud kənd rəhbərliyini, ziyalıları cəlb etməlidir.Bu işdə müəllimlərin və fəal oxucuların gücündən geniş istifadə etmək lazımdır.Bununla bərabər, kitabxanaçı təşkil etdiyi hər bir tədbirdə özü də çıxış etməlidir. O, tədbirin mövzusu üzrə kitabxana tərəfindən həyata keçirilmiş məsələlərdən danışmalıdır. Anarın ədəbi irsinin təbliği üçün keçirilən oxucu konfransında müzakirə olunan əsərlərin nə dərəcədə əhəmiyyətli və təsirli olması, bu günün tələbləri ilə necə səslənməsi əsas götürülür. Oxucu konfranslarını müxtəlif adlar altında keçirmək olar. Məsələn, «Anarın bugünkü nəsri», «Anarın hekayə və povestləri», «Anar yaradıcılığının orijinal dünyası», «Mirzə Cəlil məktəbinin dil, üslub,poetika baxımından ən istedadlı davamçılarından olan Anar haqqında», «Böyük yazıçı Anar», «Anarın həyatı və yaradıcılığı» və s.

Peşəkar kitabxanaçı oxucu konfransının maraqlı və səmərəli keçməsi üçün məruzə və çıxışlara qabaqcıl ziyalıları cəlb etməlidir ki, tədbir istənilən nəticəni verə bilsin. Konfransda Anarın həyat və yaradıcılığı ilə bağlı çıxış adətən, ədəbiyyat

müəllimlnə həvalə olunur. Konfrans proqram əsasında aparılır, protokol tərtib edilir və məruzəçilərin çıxışlarının mətni kitabxanada saxlanılır.

Anarın zəngin elmi irsini təbliğ etmək üçün məruzə və mühazirələr təsirli təbliğat forması hesab edilir. Respublikamızın ən ucqar kəndlərində belə kifayət qədər ziyalı qüvvəsi, kitabxanalar, kitabxana fəalları vardır. Məruzələr və mühazirələr vasitəsilə kitabxanaya çoxlu oxucu cəlb etmək mümkündür. Bütün bu cəhətlərinə görə məruzə və mühazirələr kitabxanaların kütləvi tədbirləri sırasında təsirli və əhəmiyyətli təbliğat forması sayılır.

Yuxarıda qeyd etdiklərimizlə bərabər, kitabxanalarda ədəbi-bədii gecələrin təşkili də vacib tədbir vasitələrindən biridir.İlk növbədə qeyd edək ki, hazırda bu tədbir müxtəlif adlar altında təşkil olunur. Bir çox hallarda «Müasir nəsrimizin inkişafında Anarın rolu», «Anar yaradıcılığının orijinal dünyası» və s. başlıqlarla keçirilir.

Adından göründüyü kimi, ədəbi-bədii gecə iki hissəyə bölünür. Birinci hissədə Anarın həyat və yaradıcılığına dair çıxışlar olmalı və məlumatlar verilməlidir. İkinci hissədə isə yubilyarın əsərlərindən parçalar söylənilməli, imkan daxilində yazıçının əsərlərindən kiçik parçalar göstərilməlidir. Bütün bu deyilənlər, qabaqcadan tərtib olunmuş ssenari əsasında aparılmalıdır.Ədəbi-bədii tədbirin məzmunlu və maraqlı olması məqsədi ilə 1,5 aya yaxın hazırlıq işləri aparılmalıdır.

Anarın həyat və yaradıcılığı haqqında oxucuların daha geniş məlumat almalarına imkan yaratmaq üçün sual – cavab gecələrinin, söhbətlərin keçirilməsi də məqsədəuyğundur. Sual – cavab gecələri kitabxanalarda keçirilən kütləvi tədbirlərin ən canlı və maraqlı formalarından biridir. Sual – cavab gecələri söhbət və müsahibə şəklində keçirilir. Dinləyiciləri maraqlandıran sualların aydınlaşdırılmasına xidmət edir, oxucularda Anar yaradıcılığı haqqında təsəvvür yaratmaq imkanı verir.

Sual-cavab gecəsinə yekun vurduqda münsiflər heyəti suallara əla cavab verən oxucuları fərqləndirərək onlara öz təşəkkürünü bildirməli və gecənin əhəmiyyəti haqqında öz yekün

sözlərini deməlidirlər.Gecədə fəal iştirak edənlərin imkan daxilində müəyyən formada mükafatlandırılması məsləhətdir.

Anarın ədəbi irsini təbliğ etmək üçün kitab sərgisindən də istifadə edilməlidir. Ümumiyyətlə, hər hansı bir tədbir keçirdikdə sərginin hökmən təşkili vacibdir. Çünki sərgilər bir qayda olaraq keçirilən tədbiri tamamlayır. Bu zaman sərgilərdə numayiş etdirilən ədəbiyyat tədbirin adına uyğun olmalıdır. Bu baxımdan şairin həyat və yaradıcılığı haqqında sərgiləri «Anarın həyat və yaradıcılığı haqqında», «Anar haqqında» və s. başlıqlar altında vermək olar.

Sərgilər yalnız kitab və kitabçalardan deyil, dövri mətbuat materiallarından da tərtib oluna bilər. Belə sərgilər oxucuları keçiriləcək tədbirlərə çagırır, onlara mütaliə mədəniyyəti aşılayır və eyni zamanda kitabxananın fondunu oxucular qarşısında açmaqda mühüm rol oynayır. Aşağıda təxminən yubileylə bağlı bir stend – sərgi nümunəsi təqdim edirik.



***BAŞLIQ: ANAR - 70***

1.Anarın şəkli.

2.***Anarın həyat və yaradıcılığı***

3.Anar. Seçilmiş əsərləri . – B.:Lider nəşriyyatı, 2004. – 414 s.

4.Anar. Şəhərin yay günləri.-B.:Yazıçı, 1980 .- S. 344 –354.

5.Bəşirov S. Anar.– B.,1994.– 55 s.

6.Əliyeva N. Anar – şəxsiyyət və sənətkar.-B.:Təhsil, 1999, – 135 s.

7.Əsədullayeva Z.Atalar və oğullar.Rəsul Rza və Anar // Azərbaycan. – 2005 . - № 1. – S.162-178

8.Aytmatov Ç. Tale müasirim /Yazıçı Anar haqqında // Ədəbiyyat . – 2005. – 9 sentyabr. – S.3.

9. Fərəh, ümid, faciə:Birinci Türkoloji Qurultay haqqında düşüncələr// Ədəbiyyat qəzeti .- 2006.–10 mart.– S.1-2.

10. ***Anar və dünya ədəbiyyatı***

Kitabxanalar Anarın ədəbi irsinin sərgisini təşkil edərkən öz şəraitlərini mütləq nəzərə almalıdırlar.Bir sözlə, kitabxananın imkanlarından və ədəbiyyatın zənginliyindən asılı olaraq sərgiləri daha böyük və geniş tərtib etmək mümkündür.

MKS-də keçirilən bütün bu kimi tədbirlər geniş oxucu kütləsindən Anar yaradıcılığına qarşı dərin maraq oyatmaqdan və onu sevdirməkdən ibarətdir.

Yubileylə əlaqədar olaraq kitabxanalarda biblioqrafik ədəbiyyat siyahılarının və «Anar» adlı şəxsi kartotekanın tərtibi olduqca zəruridir.

Tədbirlərin keçirilməsinə kömək məqsədilə metodik tövsiyələrə ədəbiyyat siyahısı da əlavə edirik.

## *ƏDƏBİYYAT SİYAHISI*
## *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri: 2 C-də .- B.: Azərnəşr,1988
C.I.: Hekayələr.- 1988.– 398 s.; C.II.: Povestlər.- 1988. – 351 s.
Seçilmiş əsərləri. – B.: Lider nəşriyyatı. – 2004 . – 414 s.
Azərbaycançılıq haqqında düşüncələr. –B.: Nurlan, 2003. - 87 s.
Dünya ədəbiyyatından tərcümələr. – B.: Gənclik,2000.- 150 s.
Dünya bir pəncərədir: Oçerklər, xatirələr.- B.:Gənclik, 1986. – 536 s.
Otel otağı: Hekayələr, povestlər.-B.: Gənclik, 1995.– 182 s.
Şəhidlər dağı: Hekayələr, düşüncələr, şeirlər, tərcümələr. – B.:Gənclik, 1995. – 558 s.

* * *

Dünya ədəbiyyatından sərbəst tərcümələr// Ədəbiyyat qəzeti. – 2006 –10 fevral. – S.3.
Fərəh, ümid, faciə:Birinci Türkoloji Qurultay haqqında düşüncələr //Ədəbiyyat qəzeti .-2006. –10 mart. – S.1-2.
Xəzərdən – Xəzərə //Ədəbiyyat qəzeti .- 2006. - 12 may.– S. 3.
Qalib gəldi, qalib getdi: Heydər Əliyev haqqında //Ədəbiyyat qəzeti .– 2006.– 8 dekabr.- S. 1.
Molla Nəsrəddin tarix və müasirlik: Molla Nəsrəddin – 100 // Ədəbiyyat qəzeti . – 2006. – 19 may. – S.4.

## *HAQQINDA*

Cahangir Ə. Ağ saç, qara saç: Anar haqqında. – B.: Nurlan, 2002. – 172 s.

* * *

Aytmatov Ç. Tale müasirim: Anar haqqında // Ədəbiyyat . – 2005. – 9 sentyabr. – S.3.
Əsədullayeva Z. Atalar və oğullar:Rəsul Rza və Anar // Azərbaycan. – 2005 . - № 1. – S.162-178.

Nəsənov N. Anar: Xalq yazıçısı haqqında // Yeni Azərbaycan .- 2002. – 18 yanvar. – S. 10.
Xalq yazıçısı Anara «Türk mədəniyyətinə xidmət vəqfi»nin yüksək mükafatına təqdim olunmuşdur// Azərbaycan. – 2002.- 2 aprel. – S.5.
Istanbulda Anarın yubileyi qeyd olunmuşdur//Xalq qəzeti. –2003. – 18 mart.- S.7.
Özkan F. Anarın əsərləri barədə bir neçə söz// Yeni Azərbaycan. – 2005. –31 mart. – S.6.

## *RUS DİLİNDƏ ƏDƏBİYYAT ƏSƏRLƏRİ*

Dede Korkud: Povestğ po motivam Azerbaydjanskoqo gposa. – Baku.-1999. – 84 s.
Komnata v otele. – Baku: Grqön,1995. – 201 s.
Noçnıe mısli( Gsse, statği, vıstupleniə, besedı, pisğma, obraheniə, slova prohaniə). – B.: Azerneşr,1998.- 560 s.

## HAQQINDA

Aytmatov Ç. Sovremennik ot sudğbı…/O jizni i tvorçestve Anara //Gxo. – 2005.- 23 sentəbrə. – S.2
Kenqerli Q.Roman Anara izdan v Uzbekistane:Şestoy gtaj pətigtajnoqo doma // Bakinskiy raboçiy. – 2005. –
26 marta.– S.4
Literaturnıy deətelğ qoda./ Po itoqam sprosa, po sluçaö obcəvlennoqo ÖNESKO Mejdunarodnoqo prazdnika literaturı – Dnə pogzii – 21 marta// Bakinskiy raboçiy. – 2005. – 16 marta – S.4.
O korifeəx i proizvedeniəx.Pervaə gnüiklopediə literaturı i iskusstva// Bakinskiy raboçiy. – 2001
.-17 maə. –S.4.
Pisateli postiqaöt nauku vıjivaniə// Bakinskiy raboçiy. – 2002. – 9 fevral. – S.3.

Povestğ Anara izdana v Kazaxstane: Belıy oven, çernıy oven//Bakinskiy raboçiy. – 2005. – 5 fevral.- S.4.
Pogt stoletiə: Razmışleniə o Kazıme Xikmete k 100-letiö pogta// Bakinskiy raboçiy. – 2002.- 6 iönə.- S.3.

### ***İnternetdə***

***www.anar.az.***
***http://az.wikipedia/orq/wiki/Anar***
***www.google.az***
***www.kitab.az***

## *MÜNDƏRİCAT*

***ANAR –70………………………………………………………………………  4***

***HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ………………………………………………….………………  7***

***ANAR YARADICILIĞININ KİTABXANALARDA TƏBLİĞİ……………………………………………………………………….  9***

***ƏDƏBİYYAT SİYAHISI……………………………………………………… 14***

*Korrektorlar:* *T.Ağamirova*
*S.Əlisgəndərova*

*Kompyuter dizaynı:* *A.Qəmbərova*

**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç.29**
**E-mail: anl @ aznet. org**

**M.F.Axundov adına Azərbaycan**
**Milli Kitabxanasının mətbəəsində**
**ofset üsulu ilə çap olunmuşdur.**
**Sifariş: 26**
**Çapa imzalanmışdır: 28.XI.2007**
**Tirajı: 150**
**Pulsuz**